Azərbaycan Respublikasının
Medianın İnkişafı Agentliyi

**Elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması**

# Uşaq və yeniyetmələr üçün maarifçi TV proqramları necə hazırlanır...

**Bütün cəmiyyətlərdə təbliğat-təşviqat vasitəsi kimi televiziyaların rolu xüsusi seçilir. Bu baxımdan onların cəmiyyətə, insanlara, uşaqlara, yeniyetmə və gənclərə təsir imkanları böyükdür. Televiziyalar da yalnız ictimai-siyasi, şou və sair xarakterli verilişlər deyil, maarifçi proqramlar təqdim etməlidir.**

Amma təəssüflər olsun ki, bizim telekanallarda təsnifatlandırmalar müşahidə olunmur. Proqramların tərtibatında qətiyyən yaş kateqoriyası nəzərə alınmır desək yanılmarıq. Çünki əvvəlki illərdən fərqli olaraq indi TV-lər daha çox qalmaqallı verilişlərə, ucuz bayağı ailə-məişət şoularına üstünlük verir, günün istənilən vaxtı bizim TV-lərdə bunları görmək olar. Bəs uşaqlar üçün mükəmməl, yüksək səviyyəli verilişlər hazırlamaq yada düşürmü? TV-lərdə uşaq və yeniyetmələr üçün elmi - kütləvi, maarifçilik proqramları varmı, varsa səviyyəsi necədi?



### TV-lərdə uşaq və yeniyetmələr üçün elmi - kütləvi, maarifçilik proqramları varmı?

Ekspertlərin mövzuya yanaşması fəqrlidir. Bəziləri hesab edir ki, ümumiyyətlə "uşaq verilişi" adı ilə təqdim edilən layihələrin bir xeyli qismi uşaqları maarifləndirməyə, öyrətməyə, onların intellektual səviyyəsini yüksəltməyə deyil, uşaqların zövqünü korlamağa xidmət edir. Bəzi teletənqidçi yerli telekanallardakı uşaq verilişlərinin səviyyəsində narazılıq edərək təəssüflə bildirirlər ki, yerli telekanalların uşaq verilişləri keyfiyyətsiz və saxtadır. Teletənqidilər hesab edir ki, bu verilişlər uşaqların şəxsiyyət kimi formalaşmasına əngəl törədir və zövqünü korlayır, uşaqlar şəxsiyyət yox, imitator kimi böyüyür. Ekspertlər birmənalı olaraq təklif edir ki, uşaq verilişlərini uşaq mütəxəssislərinin hazırlaması vacibdir və belə olarsa, uşaq və yeniyetmələrin dünyagörüşünün formalaşmasında xüsusi rol oynayan maarifçilik proqramları meydana çıxa bilər. Psixoloqlar, pedaqoqlar, ancaq uşaqlar üçün yazan ssenaristlər TV-lərdə elmi - kütləvi, maarifçilik proqramları hazırlaya bilərlər ki, o uşaqlar üçün maraqlı olar.

### "...Bu sahədə boşluq hiss edirəm"

Media eksperti Azər Həsrət bizimlə söhbətində bildirdi ki, bu barədə ayrıca bir monitorinq apamadığı üçün qəti fikir deməyə çətinlik çəkir: "Amma əlbəttə, biz bir televiziya tamaşaçısıyıq, istər-istəməz televiziya kanallarını sağa-sola çeviririk, nə getdiyini görürük. Açığını deyim uşaqlar üçün ciddi, davamlı, məqsədyönlü, yəni hədəfə yönəlik verilişlər olduğunu xatırlamıram, açığı, o verilişləri görmürəm. Kanalları çevirdikcə qarşıma bu mövzuda veriliş çıxmayıb. Əgər belə veriliş olsaydı məlumat əldə etmək, ekspert kimi fikrimi bölüşmək üçün o verilişlərə baxardım, o proqramları öz beynimdə təhlil edərdim. Hətta bu barədə sosial mediada fikirlərimi paylaşardım. Amma açığını deyim ki, bu sahədə boşluq hiss edirəm. Qeyd olunan kateqoriyadan uşaq və yeniyetmələr üçün samballı, səviyyəli, həqiqətən də uşaqları motivasiya edə biləcək, yeni hədəflərə hədəfləndirə biləcək verilişlər haqqında danışa bilmirəm. Bunu əslinə qalanda bir tamaşaçı olaraq deyirəm. Bu yazını oxuyan oxucu da düşünəcək ki, doğurudan da biz televiziya kanallarına bu istiqamətdə hansı verilişlərə baxırıq? Evində balaca uşaqları olanlar var. Onlar yəqin ki, uşaqları üçün veriliş axtarırlar. Ən uğurlu örnək və Azərbaycan tamaşaçısını xilas edəcək bir kanal tanıyıram, o da TRT Cocuk kanalıdır. Yəni Türkiyənin TRT Cocuk kanalı həqiqətən də uşaqlar üçün düşünülmüş, məqsədyönlü, dərin, yetərincə uşaq təfəkkürünə xitab edə biləcək verilişlərə zəngindir. Azərbaycanda "ARB Günəş" kanalı var, mən onu başqa kanallarımızdan ayırmaq istəyirəm. Bu ayrıdır, amma ümumilikdə bizim televiziya kanllarında uşaqlara xitab edəcək nə var? Bu suala cavab verməyə çox çətinlik çəkirəm..." - deyə A.Həsrət bildirdi.

### "...Uşaq və yeniyetmələr üçün olan proqramların səviyyəsi o qədər də qənaətbəxş deyil"

"Müasir İnkişaf" İctiami Birliyinin sədri, siyasi şərhçi Mübariz Göyüşlünün qənaətinə görə isə bizim TV-lərdə nəinki uşaqlar, hətta böyüklər üçün də elmi - kütləvi, maarifçilik proqramların sayı çox deyil. "Maarifçilik elə bir sahədir ki, bu istiqamətdə nə qədər çox iş görülərsə, cəmiyyətdə nə qədər çox maarifçilik toxumu əkilərsə bunun bir o qədər də faydası olar. Düşünürəm ki, belə tip verilişlərinin sayını artırmaq lazımdır. Mənə elə gəlir ki, uşaq və yeniyetmələr üçün olan proqramların səviyyəsi o qədər də qənaətbəxş deyil. Bilirsiz, bizdə əsasən auditoriya xarici kanallara baxırlar, uşaqlar xüsusən də Türkiyə TV-lərindəki uşaq kanallarını izəyirlər. Bu da bizim televiziyaların uşaqlara, yeniyetmələrə yönəlik elmi-kütləvi, maarifçilik proqramlarının qaneedici səviyyədə olmadığını göstərir. Ümumiyyətlə, zaman-zaman televiziyalarımıza Azərbaycan Prezidentinin sərəncamı ilə vəsait ayrılıb. Maarifçilik məsələsi elədir ki, burada gəlir gətirməyən bir sahədir, həmin an üçün o kütləvi şəkildə izlənilməyə, reklam gətirməyə bilər. Maarifçilik, elmi-kütləvi verilişlər gəlir gətirməyən proqramlar sırasındadır. Amma düşünürəm ki, dövlətin TV-lərə göstərdiyi maddi dəstəyi belə maarifçilik proqramlarına yönəltmək olar. Uşaq və yeniyetmələr arasında bu istiqamətdə daha çox iş görülməlidir ona görə ki, biz hər gün müxtəlif zorakılıq, kriminal, narkomaniya və sair hadisələrin şahidi oluruq. Təəssüf ki, qurbanlar arasında uşaq və yeniyetmələr də yox deyil. Bu baxımdan maarifçilik proqramlarının sayının və keyfiyyətinin artırılmasına, peşəkar yanaşmalara, psixoloqun, pedaqoqun, həkimin, müəllimin, sosioloqun, jurnalistin və bir neçə qrupun birləşərək belə verilişlərdə iştirakçı və məsləhətçi kimi təmsil olunmasına ciddi ehtiyac var. Mən Türkiyədə səfərdə olarkən TRT Cocuk kanalını da ziyarət etdim. Orada bir cizgi filminin yaradılması üçün çox böyük bir qrupun bu istiqamətdə işlədiyi və ortaya nə qədər böyük zəhmət qoyulduğu söylənildi. Uşaq və yeniyetmələrə yanaşmalar bu cür həssaslıq tələb edir" - deyə M.Göyüşlü qeyd etdi.

***İradə SARIYEVA***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**

Bakı Xəbər.- 2022.- 1 fevral.- S.12.